# Valyuta ehtiyatları 43 milyard dolları keçmişdir

İqtisadi təhlükəsizlik üçün zəmanət təmin edən strateji valyuta ehtiyatları Azərbaycanda makroiqtisadi riskləri tam neytrallaşdıra bilən səviyyəyə çatmışdır. Valyuta ehtiyatlarının ildən-ilə çoxalması, iqtisadi artımın qeyri-neft sektorundan qaynaqlanması, inflyasiyanın idarə olunan birrəqəmli səviyyədə saxlanması davamlı inkişafa möhkəm zəmin yaratmışdır.

Azərbaycanda strateji valyuta ehtiyatlarının artım tendensiyasının qarşıdakı illərdə daha intensiv xarakter alacagı proqnozlaşdırılır. Bu ilin birinci rübündə strateji valyuta ehtiyatlarımız 43 milyard dolları keçmişdir. Xatırladaq ki, bu göstərici 2009-cu ildə 20,4 milyard dollar, 2010-cu ilin sonunda 30 milyard dollara yaxın, 2011-ci ilin sonunda isə 40 milyard dollardan çox olmuşdu. Milli Məclisin iqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə bildirmişdir ki, növbəti on ildə Azərbaycanın strateji valyuta ehtiyatlarının 100 milyard dollara çatacagı proqnozlaşdırılır. Toplanan valyuta ehtiyatları, əsasən, gələcək nəsillərin təminatı üçün Dövlət Neft Fonduna yönəldiləcəkdir. Xatırladaq ki, ölkəmizin strateji valyuta ehtiyatları Dövlət Neft Şirkətinin aktivlərindən, Mərkəzi Bankın ehtiyatlarından və hökumətin depozitlərindən formalaşır.
2012-ci ilin əvvəlində Dövlət Neft Fondunun aktivləri 2011-ci ilin əvvəli (22.766,8 milyon ABŞ dolları) ilə müqayisədə 30,9% artaraq 29 milyard 800,0 milyon dollar olmuşdur. 2011-ci ildə fondun büdcə gəlirləri 15 milyard 628,3 milyon manat, büdcə xərcləri isə 9 milyard 606,6 milyon manat təşkil etmişdir. Dövlət Neft Fondunun məlumatına görə, 2012-ci ilin yanvar-mart ayları ərzində fondun büdcə gəlirləri 3 milyard 586,9 milyon manat, xərcləri isə 1 milyard 919,9 milyon manat təşkil etmişdir. Bu dövrdə fondun neft və qaz sazişlərinin həyata keçirilməsi ilə bağlı gəlirləri 3 milyard 352,4 milyon manat, o cümlədən mənfəət neftinin və qazın satışı üzrə gəlirləri 3 milyard 349,4 milyon manat, tranzit gəlirləri 1,3 milyon manat, bonus ödənişləri üzrə gəlirləri 1,6 milyon manat, xarici sərmayəçilər tərəfindən təhvil verilmiş aktivlərdən gəlirləri 0,1 milyon manat təşkil etmişdir. Ötən rüb ərzində fond vəsaitlərinin idarə olunmasından əldə olunan gəlirlər 234,5 milyon manat olmuşdur. Valyuta məzənnələrinin dəyişməsindən yaranan fərq ilə bağlı fondun büdcədənkənar gəliri 336,1 milyon manat təşkil etmişdir.
Cari ilin birinci rübündə Dövlət Neft Fondunun 2012-ci il büdcəsinin icrası çərçivəsində dövlət büdcəsinə 1 milyard 839,8 milyon manat vəsait transfert edilmişdir: qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə 48,7 milyon manat, Samur-Abşeron suvarma sisteminin yenidən qurulmasına 20,8 milyon manat vəsait ayrılmışdır.
«2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı»nın maliyyələşdirilməsinə Neft Fondundan 3,7 milyon manat vəsait ayrılmışdır. «Bakı-Tbilisi-Qars yeni dəmir yolu» layihəsinin maliyyələşdirilməsinə 4,8 milyon manat yönəldilmişdir. 2012-ci ilin birinci rübü ərzində Neft Fondunun idarə edilməsi ilə bağlı xərcləri 2,1 milyon manat olmuşdur.
Bu il aprelin 1-nə fondun aktivləri 2012-ci ilin əvvəlinə (29 800,0 milyon ABŞ dolları) nisbətən 8,6% artaraq 32 milyard 359,4 milyon dollar olmuşdur.
2012-ci ilin birinci rübündən etibarən Dövlət Neft Fondu qızılın alınmasına başlamış və bu dövr ərzində qızılın miqdarı 2 ton 804 kq (90143 unsiya) təşkil etmişdir.
Mərkəzi Bankın rəsmi valyuta ehtiyatları isə 2012-ci il aprelin 1-nə 10 milyard 825 milyon 600 min dollar təşkil etmişdir. Mərkəzi Bankdan verilən məlumata görə, ilin əvvəli ilə müqayisədə bankın valyuta ehtiyatların həcmi 344 milyon dollar (3,3%) artmışdır.

Rəşad SADIQOV